# Qisas və... (povest)



*Nizami MSSMMSSDOV - TAĞISOY*

*(Əvvəli ötən sayımızda)*

Davud dayı deyirdi ki, bunu bizim diviziona çatdıran oğlan hiddətindən əsir, danışa bilmirdi. Deyirdi ki elə faşistliyi dünyada heç kim eləməz. Bizim əsgərlərin cəsədi qan içində çayın kənarında qalmışdı. Gəlin, heç olmazsa gedib onları götürüb aparıb dəfn eləyək.

Davud dayı danışırdı ki, mən də, sizə dediyim kimi, komandir divizionun adyutantı işləyirdim. Divizion komandirinin inamını yetərincə qazanmışdım. O, bilirdi ki, mən onu heç zaman aldatmamışam və daim tapşırıqlarına da kişicəsinə əməl etmişəm. Sözümlə işim arasında heç vaxt uyğunsuzluq görməmişdi.

Bizim əsgərlərdən gəlib bu məlumatı verəndə komandir divizion yerində yox idi. Onun vəzifəsinin yerinə yetirilməsi mənə həvalə edilmişdi. Yuxarıda dediyim oğlan - "Xəlilov, ermənilər bizimkilərin on səkkiz nəfərini qırdılar. Nə durmusunuz? Bizə taçka verin, gedib onların meyitini götürüb dəfn edək", - ağlamsına-ağlamsına dedi.

Mən də dörd taçka qoşdurdum. Özümdə onlarla birgə gedib meyitləri gətirdik, tranşey qazıb basdırdıq.

Ermənilər bizim elə canlara dəyən oğlanları öldürmüşdülər ki, onlardan hər biri sözün əsl mənasında cəngavər idi. Dostlarımızı basdıra-basdıra o qədər ağladıq ki, gözlərimizin yaşı qurudu. Amma ermənilərə hiddətimiz azalmırdı, əksinə dəqiqəbədəqiqə, saatbasaat bu hiddət, bu qəzəb artır, nəhayətsiz nəhrlərin dalğasına, bəlkə də ucsuz-bucaqsız okeanlardan sahilə can atan sunamiyə çevrilirdi. Uşaqların söz-söhbəti qurtarmışdı. Hamı sanki yerində donub qalmışdı. Bir-birinin üzünə baxır, içindən keçən sözləri çatdırmaqda sanki çətinlik çəkirdi. Amma onlar qana-qan etmə hissini, istəyini sanki bir-birinin sifətindən oxuyurdular. Beləcə soydaşlarımızın üçgünlüyü çıxdı.

Üç gündən sonra biz getdik ermənilərin olduqları məntəqənin yanına. Orada bir erməni generalı ilə görüşdük. Ona dedik:

- Sizin erməni əsgərləri bizim onsəkkiz nəfər azərbaycanlı soldatı öldürüb. Onlar barəsində nə ölçü götürdünüz? Çayda çimənimizi, sahilə çıxanımızı ermənilər avtomat atəşinə tutublar, - nə deyirsiniz?

O, gülməyə başladı.

Güləndə mən özümü saxlaya bilməyib dedim:

- Nəyə gülürsünüz?

Dedi:

- Niyə də gülməyim? Sən gülməli söz danışırsan.

Dedim:

- Necə yəni gülməli danışıram?

Dedi:

- Bir piyan olub, başdan xarab, araxdan mıxlayıb, gedib onları qırıb, mən ona neyləyə bilərdim? Oradanda hara qaçıb getdiyini bilmirəm.

Lakin həqiqətdə isə hər şey heç də erməni generalının dediyi kimi yox, biz söylədiyimiz kimi olmuşdu. On səkkiz azərbaycanlı balası bir tayqulaq Andranikin güdazına getmişdi.

Erməni generalının sözlərini, riyakarlığını görən azərbaycanlı uşaqlar hamısı, Davud dayının dediyinə görə, bir nəfər kimi onun yanından aralanıb deyiblər: "Yaxşı, sən, sən ol, biz də, biz. Qabaqca səni qanına qaltan edəcəyik". Sonra geri qayıdarkən içimizdən nə keçdiyini bir-birimizə açıqlamalı olduq. Hamının fikiri üst-üstə düşürdü. Hamı deyirdi: "Biz onsuzda müharibədəyik, dava içindəyik, nemesin gülləsi üstümüzə onsuz da daş kimi yağır, gündə neçə rota, neçə vzvod döyüşə girir, oradan bir nəfər salamat qayıtmır. Elə bilək biz də o ölənlərin biriyik. Səni öldürəcəyik, sonra nə olar olsun".

Bu zaman bizim uşaqlardan biri lap bərkdən dilləndi:

- Ayə, nə danışırsan, nemes gülləsindən ölmək kişilikdi, murdar erməni gülləsinin sənə dəyməsini necə qəbul edirsən? Belə olmaz. Biz elə etməliyik ki, onları öldürək, amma özümüz salamat qalaq.

- Uşaqlar onun səsinə səs verdilər, dedilər: "O, doğru deyir".

Nə isə söhbət edə-edə, plan cızacıza gəlib öz divizionumuza yetişdik. İlk növbədə plan bundan ibarət oldu ki, kluba yığışaq, orada söhbətimizi davam etdirək.

Davud kişi, həmsöhbətim, bu yerdə nitqinin istiqamətini dəyişərək, yanayana deyir:

- Neynəyim, nağayrım, indi ağdamlı İskəndərov burda olaydı, dediklərimə şahidlik eləyəydi. Davud kişinin söylədiyinə görə ağdamlı İskəndərov çox qoçaq oğlanıymış, hamıondan qorxur, tir-tir əsərmiş. Elə bax o, İskəndərovun özü klubun açarını alıb, onun ağzını bağlatdırır. Qapısına azərbaycanlı uşaqlardan birini qoyub, tapşırır. "Buraya, içəri nə bir nəfər rus, nə də bir nəfər ermənini qoymayın girsin".

Bizim uşaqların içində musiqi alətlərində yaxşı ifa edənlər də vardı. Xüsusən qara zurnanı elə yanqılı dilləndirənlər vardı ki, gəl görəsən. Klub bağlı, hamı danışıb, bitişdi. Bir fikirdə həmrəy oldular ki, erməniləri onlar bizimkiləri qırdığından dəfələrlə çox qətlə yetirməliyik. Bu zaman bizim uşaqlar zurnada "Cəngi" çalmağa başladılar... hamının milli hissləri tuğyan etdi. Zurna səsinə əlavə nə qədər azərbaycanlı uşaqları içəri doluşmağa başladılar. Şərifov (Davud dayının dediyi azərbaycanlı əsgərlərdən biri) qapını yenidən bağlatdı. İskəndərov klubun səhnə hissəsinə, irəli çıxıb dedi:

- Qardaşlar, mən bir də deyirəm: "Biz o uşaqları torpağa tapşıranda da, erməni generalının yanından qayıdanda da, hamımız söz verdik ki, onların qanını yerdə qoymayacağıq". Sonra isə, bizə bir daha müraciət edərək:

- Kimin qəlbindən nə keçir bir daha çıxıb söyləsin. Elə bunu demişdi ki, orada Ağdamdan 3-4 nəfər başqa uşaqlar da vardı, onlar dedilər:

- Biz and da içdik ki, onların qanını yerdə qoymayacağıq.

İskəndərov yenə də sözünə davam etdi. Mənə bir dəftər gətirin. Uşaqlardan biri ona dəftər gətirib verdi.

Elə söhbətin burasında Davud kişi deyir ki, dəftərə birinci məhz öz adımı yazdırdım. Məndən sonrada başqaları 100 nəfər azərbaycanlıdan doqquz nəfərin adı həmin siyahıya düşdü. Və bundan sonra, and içib, uşaqlardan ayrılıb getdik. Özümüzünkülərdən iki nəfərini pusquda qoyduq. Onlara bərkbərk tapşırdıq ki, ermənilər çimməyə getmək istəyəndə bizə xəbər versinlər.

Aradan az keçməmişdi ki, pusqudakı soldatlar gəldilər ki, odur, bax ey, ermənilərdən əlli nəfərdən çoxu yığışıb çimməyə gedir. Onlar bu xəbəri verən kimi hay-haray düşdüki, bəs silahımız yoxdu. Bütün silah-sursatnə vardısa, hamısı kazarmadaydı. Bütün avtomat, pulemyot, qranat - nə vardı hamısı. Tək bircə məndə trofeyni TT vardı. O da, dediyim kimi, komandir divizionun adyutantı işlədiyimdən məndəydi. Gecə-gündüz daim üstümdə olurdu.

Uşaqlar dedilər:

- Bircə əlacımız sənə qalıb.

Dedim:

- Baş üstə, nə deyirsiniz, onu da eləyək.

Dedilər:

- Gedək kazarmaya, deynən ki, filan kənddən fişəng atırlar ki, nemes oranı bombalasın. Komandir divizion deyir ki, silah-sursat versinlər, oranı okrujeniye edək. Getdik. Dnevalniyə dedim:

- Komandir divizion deyir ki, filan yerdən fişəng atırlar, onu bu gecə gedib qamaralayıb məhv etməliyik. Bu uşaqlara doqquz avtomat ver.

Dnevalnı silah-sursat anbarının qapısını açıb dedi:

- Nə götürürsünüz, götürün.

Hərə bir şey götürdü, avtomat, pulemyot və onların disklərini götürüb getdik.

İçimizdəki ağdamlı uşaqlardan biri dedi:

- Bir hissəmiz çayın bu üzü, o biri hissəmiz, o biri üzü ilə gedək. Bəlkə onları bıçaqla vuraq ki, heç cıqqırıqları da çıxmasın.

Uşaqlardan biri dedi:

- Ora çox uzaqdı.

Digəri dedi:

- Uzaqdan vurarıq.

Dedim:

- Bəlkə avtomatla uzaqdan vurdun, dəymədi. Ondan sonra onlar səni yerində yatıracaqlar? Onda gör işimiz necə olacaq?! Amma biz bir kolun arxasında gizlənib yaxınlaşmaqla odinocnı vıystrel etsək, o tayda o dəstə, bu tayda bu dəstə öz işini görə bilsə, yaxşı olar. Elə ki, gördük ki, siz onları avtomatla vurdunuz, səsinizi gəlir, onda bizdəsizə qoşularıq. Elə belə də oldu. Çayın yamacları hürdür kolluqlardan ibarət idi. Çayın bu tərəfindəkilər bu tərəfdən, o tərəfindəkilər o tərəfdən pusa-pusa ermənilərə yaxınlaşdılar. Bizimkilər artıq onların lap yaxınlığında idilər. Onda gördük ki, çayın bu tərəfində bir "çık", o biri tərəfində bir "çık" səsi eşidildi. Bu an ermənilər duyuq düşüb istədilər lüt-üryan qaçsınlar, özlərini silaha çatdırsınlar. Biz təbiidir ki, buna heç cür fürsət verə bilməzdik. Ermənilər əllərini avtomata çatdırana qədər tutduq onları atəşə. And olsun Xaliqə!Bəlkə aşağıda durub çəkən olsaydı, çayın qanla dolu axdığının şahidi olardı. Burada çimən ermənilərdən birini də salamat buraxmadıq. Aradan heç bir az keçməmişdi ki, bizim hamımızı tutub apardılar.

Bəlalı günlərimiz başladı, nə başladı. Oğul, elə bir zillət çəkdik ki, onu Allah heç düşmənimə də göstərməsin-.And olsun Xaliqə! Bizi öldürsəydilər ondan qat-qat yaxşı olardı, canımız əzabdan, səfalətdən qurtarardı. Amma olmadı. Erməniləri qıranların hər birini uzun müddət odinoçnı kamerada saxladılar. Kamerada qalmaq da zülm idi, sintaran çəkirdik, özümüzə rahat ölüm diləyirdik. Amma bu ölümü bizə rəva görən vardımı? Vaxtım olanda kameranın qaranlıq küncündə ömrümün keçən günlərini "vərəqləyirdim". Gördüyüm, keçirdiyim ömür-gün gözümün qarşısında canlanırdı. Millətimizin gününü düşünürdüm, fikirləşirdim ki, Sovet İttifaqı adlanan əsli-kökü olmayan bir məmləkəti qorumağa göndəriləsən, burada da erməni məkrindən, erməni cələsindən kənarda qala bilməyəsən. Bundan başqa ermənilərin daim bizimlə ədavətinin tarixi kökləri haqqında da daha çox düşünürdüm...

Davud dayı bunları dilə gətirdikcə yadıma gəlir, düşünürdüm ki, tarixi faktlar, mötəbər mənbələr ermənilərin şərəfsizliyi ilə bağlı nə qədər məlumatlar saxlasa da, biz yenə də onların toruna düşüb, öz kimliyimizi sübut etmək zorunda qalırıq. Sanki bu da uzunmüddətli olmur. Yenə hər şey yenidən təkrarlanır. Yadıma ermənilərin Azərbaycan torpaqlarına hansı şəraitdə, nəyə görə, kimlərin fitvasına görə köçürüldüyü, əsərlərdə yer almış məqamlar daha çox düşürdü. Rus diplomatı A.Qriboyedovdan, Qafqazda iyirmi ildən artıq yaşamış, Qafqaz xalqlarının milli-mental düşüncə tərzinə dərindən bələd olan İ.Kanadpevin "Zaqafqaziya həyatının oçerkləri" kitabında onun ermənilərlə bağlı verdiyi xarakteristika düşdü. Gördüm ermənilərlə məsələ heç də asan başa gələsi iş deyil. Çünki İ.Kanadpev göstərirdi ki, ermənilər ikiüzlü yox, bir neçə üzlüdürlər. Kitabında ermənilərlə bərabər o, həm də türklər, gürcülər və başqalarının milli xüsusiyyətlərini qabarıq şəkildə göstərməyə can atır və bütün hallarda, müəllifin qeyd etdiyi kimi, ermənilərin digərlərindən mənfi cəhətləri ilədaha çox fərqləndiyini yanayana yazırdı. İ.Kanadpev adını çəkdiyimiz kitabın birincifəslini ermənilərə həsr edib, göstərir ki, tələbəlik dövründə onun dostlarından birinin adı Vladimir Vladimirovic Popov idi. O, yoldaşlar arasında böyük nüfuz sahibi idi. Adı, atasının adı və soyadına görə fikirləşmək olardı ki, o, milliyyətcə qatı rusdur. Lakin sifətinə nəzər saldıqda onun qafqazlı olduğunu yəqin etmək olardı. Onunla mənim aramda yaxşı münasibətlər qurulmuşdu. Bununla belə, onun davranışı, baxışı, münasibətlərində və s. tipik ermənilik müəyyən etmək olurdu. Onunla dostluğumuz üç ilə yaxın çəkdi.

*(Davamı var)*